Ədəbiyyat qəzeti

4 dekabr 2021-ci il 23

# İsa Həbibbəyli və Kamal Abdullaya yüksək mükafat



Türk Ədəbiyyatı Vəqfinin başqanı Sərhad Kabaklı 2021-ci il üçün "Yaşayan Dədə Qorqud" mükafatı sahiblərinin adlarını açıqlayıb. Millət vəkili, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli və Xalq yazıçısı, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla "Yaşayan Dədə Qorqud" mükafatına layiq görülüblər. Hər iki ziyalı uzun illər apardıqları elmi araşdırmalara, Türk mədəniyyətinə və ədəbiyyatına xidmətlərinə, Türk dünyasının birliyi uğrunda həyata keçirdikləri elmi və ədəbi fəaliyyətə görə mükafatlandırılıblar.